# Azərbaycan-Fransa münasibətlərində yeni dövr başlayır

**Vətən müharibəsindən sonra Azərbaycan əleyhinə mövqe nümayiş etdirən əsas ölkələrdən biri Fransa idi. Rəsmi Parisin ölkəmiz əleyhinə qarayaxma kampaniyaları, rəsmi şəxslərinin şər-böhtan xarakterli çıxışları iki ölkə arasında vəziyyəti gərginləşdirmişdi.**



Son dönəmlərdə isə münasibətlərin inkişafında müsbət dinamika müşahidə olunur. Xüsusilə Avropa Siyasi Birliyinin Kopenhagen sammiti çərçivəsində Prezident İlham Əliyevin Emmanuel Makronla görüşündən sonra əlaqələrin yaxşılığa doğru getdiyi müşahidə olunur. Prezident İlham Əliyev Fransanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sofi Laqutun etimadnaməsini qəbul edərkən Kopenhagen görüşünü xatırladaraq, həmin görüşün nəticəsində ölkələrimiz arasında anlaşılmazlığa səbəb olan məsələlərin keçmişdə qaldığını deyib. İkitərəfli gündəlikdə yeni dövrün başladığını vurğulayan dövlət başçısı, ilk növbədə, insanlararası və biznes nümayəndələrinin təmaslarının, mədəni, humanitar sahələrdə əməkdaşlığın bərpasının və inkişaf etdirilməsinin önəminə toxunub.

Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı Aqşin Kərimov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan və Fransa arasında etimad səviyyəsini yaradan şərtlərdən birincisi, Fransanın Cənubi Qafqazda ona strateji mənfəət gətirməyəcək oyun qaydalarından iştirak etməkdənsə, məhsuldar nəticələr naminə Azərbaycanla əməkdaşlığı yeniləməyi düşünməsidir: "Bu, Zəngəzur dəhlizinin mahiyyətində Fransanın gələcəkdə iqtisadi-ticari dividendlər qazanmağını hədəfləyən baxışdır. İkincisi, Fransa Azərbaycanla geosiyasi məsələlər və regional təhdidlərin qiymətləndirmələri üzrə məsləhətləşmələrə üstünlük verir. Üçüncüsü, Parisin strategiyasını Zəngəzur dəhlizi kontekstində təzələməsi Azərbaycanla ABŞ-nin münasibətlərindəki yeni mərhələ və Bakı ilə Böyük Britaniyanın əlaqələrindəki mühüm ştrixlərlə əlaqəlidir. Göründüyü kimi, Azərbaycanla Fransanın münasibətləri tərəflər arasında etimadı yüksəldir və onların konstruktiv əməkdaşlıq modelinə daxil olacağını səciyyələndirir".

Ekspert qeyd edib ki, rəsmi Bakı Parisin regionda iştirakı üçün qapıları açır və Azərbaycan bunun müqabilində Fransadan əhəmiyyətli işlər gözləyəcək. Bu, Fransanın Ermənistanı silahlandırmaqdan əl çəkəcəyinə dair zəmanətin alınması ola bilər. Başqa tərəfdən isə Azərbaycan Fransanın Ermənistanda keçiriləcək parlament seçkilərinə müdaxilə imkanlarını aradan qaldırmağı istəyəcək. Həm də Fransa həlledici bir dövlət kimi Avropa İttifaqının Ermənistandakı Monitorinq missiyasının çıxarılmasına çalışmalıdır.

A.Kərimov qeyd edib ki, Azərbaycanla Fransa hazırkı konstruktiv münasibətlər sistemini açıq qalan məsələlərin nəticəsi ilə yüksək səviyyəyə qaldıra bilər: "Bu, Bakı-Paris xəttində əlaqələrin reqlamentinə təsir edəcək. Azərbaycan da Fransanın beynəlxalq güc siyasətindəki roluna əsaslanaraq strateji imkanlarını yüksəltmək üçün Parislə yeni danışıqlara başlaya bilər".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.-18 oktyabr (№224).- S.11.